## Bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilmişdir

Milli Məclisin ötən həftə keçirilmiş iclasında Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatı dinlənilmiş, «Yol hərəkəti haqqında» Qanuna, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləyə bir sıra əlavə və dəyişikliklər olunmuşdur.

Hesablama Palatasının sədri Heydər Əsədov məruzə ilə çıxış edərək bildirmişdir ki, 2012-ci il yanvarın 16-da Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev ölkəmizdə maliyyə intizamının daha da yüksəldilməsi, şəffaflığın tam şəkildə təmin edilməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin davam etdirilməsi tapşırığı vermişdir. Bu tapşırığın keyfiyyətlə yerinə yetirilməsi üçün kənar dövlət maliyyə nəzarətini həyata keçirən orqan kimi Hesablama Palatası kredit sərəncamçılarında maliyyə intizamının daha da gücləndirilməsini, büdcə vəsaitlərindən sui-istifadə edilməsinin və korrupsiya hüquqpozmalarına şərait yaradan halların qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini özünün prioritet vəzifələri kimi müəyyən etmişdir. 2011-ci ildə Hesablama Palatası tərəfindən 46 audit və 7 analitik təhlil işi keçirilmişdir ki, bu da ötən illə müqayisədə 12,8% çoxdur. Sonda hesabat səsə qoyularaq qəbul edilmşdir.

Sonra «Yol hərəkəti haqqında» Qanuna, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləyə də bir sıra dəyişikliklər olunmuşdur. Bildirilmişdir ki, bu dəyişikliklər nəqliyyat vasitələrinin istismarı zamanı sürücülərin məsuliyyətini daha da artıracaqdır.

Yol hərəkəti qaydalarının pozuntularına görə tətbiq edilən bəzi cərimələrin məbləği artırılmışdır

Yol hərəkəti ilə bağlı qanunvericilik aktlarındakı dəyişikliklərdə «iki yüz manatdan üç yüz manatadək miqdarda» sözləri «üç yüz əlli manat miqdarında» sözləri ilə əvəz edilmişdir. Bu xətanın il ərzində təkrar törədilməsinə görə 350 manat cərimə tətbiq ediləcək. Əvvələr bu xətaya görə cərimənin məbləği 200 manatdan 300 manat həddində idi.

Edilmiş dəyişikliklərin hansı xətalara görə tətbiq ediləcəyini və cərimə məbləğlərini əvvəlki qanunvericiliklə müqayisəli şəkildə təqdim edirik:

| Yol hərəkəti qaydalarının pozuntusu | | |
|---|---|---|
| | Əvvəlki qanunvericilikdə | Yeni qanunvericilikdə |
| Təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsini idarəetmə | 15 manat | 40 manat |
| Yolda müəyyən edilmiş hərəkət sürəti həddini aşma - 10-30 km/saat həddində | 15 manatdan 20 manata qədər | 20 manat |
| Yolda müəyyən edilmiş hərəkət sürəti həddini aşma - 30-60 km/saat həddində | 20 manatdan 40 manata qədər | 100 manat |
| Yolda müəyyən edilmiş hərəkət sürəti həddini aşma - 60 km/saat həddindən artıq | 40 manatdan 60 manata qədər | 150 manat |
| Motodəbilqə taxmadan və ya onu düyməmədən motosikleti idarə edən, yaxud motodəbilqəsi olmayan və ya onu düyməməyən sərnişinləri motosikletdə daşımaq | 15 manatdan 20 manata qədər | 20 manat |
| İşıq cihazlarından və səs siqnallarından istifadə qaydalarını pozmağa görə | 15 manatdan 20 manata qədər | 30 manat |
| Nəqliyyat vasitəsinin idarəetmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə | 60 manat | 100 manat |
| Bu qayda pozuntusunun il ərzində təkrar törədilməsinə görə | 80 manatdan 100 manata qədər | 200 manat |
| Nəqliyyat vasitəsini idarəetmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsi nəticəsində zərərçəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə maddi zərər vurulmasına görə | 140 manatdan180 manata qədər | 400 manat |
| Nəqliyyat vasitəsini idarəetmə hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsinin alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə | 80 manatdan 100 manata qədər | 150 manat |
| Nəqliyyat vasitəsini idarəetmə hüququ olan və nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edən şəxs tərəfindən İnzibati Xətalar Məcəlləsinin 151.2 və ya 151.3-cü maddələrində nəzərdə tutulmuş xətaların törədilməsinə görə | 120 manatdan 150 manata qədər | 200 manat |
| Nəqliyyat vasitəsini idarəetmə hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsinin alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə | 150 manatdan 200 manata qədər | 250 manat |